# Divident siyasəti

“Kapital Bank” ASC-də dividend siyasəti “Kapital Bank” ASC-də dividendlərin hesablanması və ödənilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, “Banklar haqqında” Qanuna və digər hüquqi aktlara, habelə Bankın Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. Dividend Bankın xalis mənfəətinin səhmdarlar arasında onların sahib olduqları səhmlərin sayına mütənasib surətdə bölüşdürülməsi üçün nəzərdə tutulan hissəsidir. Bankın əldə etdiyi xalis mənfəətin müəyyən hissəsi Səhmdarların Ümumi yığıncağının qərarına əsasən Bankın səhmdarlarına dividend şəklində ödənilir. Bununla birlikdə, Bankın uzunmüddətli və stabil fəaliyyətinin təmin edilməsi, AR Mərkəzi Bankının prudensial normativlərinə riayət edilməsi üçün əldə edilmiş mənfəətin müəyyən hissəsi isə kapitalın artımına yönəldilir.